**AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ**

**S Ə R Ə N C A M**

**№ 253s**

*Bakı şəhəri, 22 avqust 2011-ci il*

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 may tarixli 1490 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramında Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı üzrə işlərin davam etdirilməsi üçün genişmiqyaslı investisiya yönümlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu işlərin maliyyələşdirilməsinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 16 iyun tarixli 156s nömrəli sərəncamı ilə "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrasına cəlb edilmiş təşkilatlara 2011-ci il üçün 300308400,0 (üç yüz milyon üç yüz səkkiz min dörd yüz) manat məbləğində vəsait ayrılmış və bu vəsaitin sifarişçi təşkilatlar və konkret obyektlər üzrə bölgüsü Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılaraq icra üçün sifarişçi təşkilatlara göndərilmişdir. Ancaq mövcud qaydalara əsasən işlərin icraçısının seçilməsinə bir neçə ay vaxt tələb olunduğunu və bu səbəbdən 2011-ci il üçün nəzərdə tutulan tikinti proqramının tam həcmdə yerinə yetirilməsində problemlərin yarana biləcəyini nəzərə alaraq, sifarişçi təşkilatlar bu işlərin birbaşa müqavilələr əsasında icra edilməsinə icazə verilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çoxsaylı müraciətlər edirlər. Eyni zamanda, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət edərək, Bakı şəhərinin və respublikanın regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 16 iyun tarixli 156s nömrəli sərəncamı ilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması üçün ayrılan 100,0 (yüz) milyon manat və 2011-ci il 10 avqust tarixli 239s nömrəli sərəncamının 2 nömrəli əlavəsində göstərilən obyektlər üzrə ayrılan 18380000,0 (on səkkiz milyon üç yüz səksən min) manat məbləğində yerinə yetiriləcək işlərin birbaşa müqavilələr əsasında icra edilməsinə icazə verilməsini xahiş etmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 may tarixli 1490 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 16 iyun tarixli 156s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsinə dəyişikliklərdə dövlət əsaslı vəsait qoyuluşu üçün əlavə nəzərdə tutulmuş 2484117000,0 (iki milyard dörd yüz səksən dörd milyon yüz on yeddi min) manat vəsaitin sifarişçi təşkilatlar və obyektlər üzrə dövlət sifarişi kimi bölgüsü"ndəki obyektlərdən bu sərəncamın əlavəsində göstərilən obyektlər, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 10 avqust tarixli 239s nömrəli sərəncamının 2 nömrəli əlavəsində göstərilən obyektlər üzrə yerinə yetiriləcək işlərin mühüm əhəmiyyət kəsb etdiyini, icrasına təcili başlanılmasının və 2011-ci il üçün nəzərdə tutulmuş tikinti proqramının icrasının təmin edilməsinin vacibliyini nəzərə alaraq, müstəsna hal kimi, bu işlər üzrə müvafiq sahədə təcrübəsi olan şirkətlərlə danışıqlar əsasında seçilən layihəçi və podratçı təşkilatlarla birbaşa müqavilə bağlamasına sifarişçi təşkilatlara icazə verilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 22 avqust tarixli 253s nömrəli
sərəncamına əlavə

**İşlərin birbaşa müqavilələrlə yerinə yetirilməsinə icarə verilən obyektlərin**

**SİYAHISI**

| **Sifarişçi təşkilatlar üzrə layihələrin adı** |
|---|
| **"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi ilə bağlı işlər, o cümlədən:** |
| Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi |
| Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi |
| Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi |
| Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi |
| Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti |
| "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti |
| "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti |
| "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyəti |
| "Azərsu" Açıq Səhmdar Cəmiyyəti |
| Bakı Şəhər İcra Hakimiyyəti |
| Suraxanı Rayon İcra Hakimiyyəti |
| **"Azərsu" Açıq Səhmdar Cəmiyyəti** |
| "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması |

**Aparatın rəhbəri** **Ağa-Bala Hacıyev**